# Qaraçaylı çağlayanı

**Söhbətimiz hər hansı bir çaydan, onun özünü qayadan atıb şəlaləyə çevrilməsindən getməyəcək.**

55 il əvvəl həyatda öz yarışını, yetkinlik dövründəsə söz yarışını başlamış bir şairdən danışacağıq: Vəli Qaraçaylıdan.

Bu gün şeirimiz öz sahəsinin (aləminin) parlaq kəhkəşəninə bənzəyir. Həm də hər səyyarəsinin öz səsi, nəfəsi olan ulduzlardan yaranmış bir aləmə.

Azərbaycana şair xalq deyənlər yanılmamışlar. Çünki azəri övladları qələmə sarılıb dədələrini ustadların yolunu səyyarı kimi işıqlandırmağa çalışırlar.

Qələm əhlinin çoxluğundan, şeir gülüstanının bolluğundan qarılmaq lazım deyil.

Bu söz yarışımız əsrlərcə ənənə kimi yaşayıb davam edir, yeri gəldikdə dahilər yetişdirib şeir bayrağımızı ən uca zirvələrə sancırlar.

Sevincimizin həmin cıdırının iştirakçılarından, qanadlı köhlənin yalmanındakı atlıdan biri də Vəli Qaraçaylıdı:

**...Zəlimxan çoxdankı arzuya çatdı,**  
**Köhlənin belinə yapıncı atdı,**  
**Sıçrayıb cilovsuz yalına yatdı,**  
**Çox gəzib dolandı dağı sazaqda,**  
**Köhləni kişnədi Qarabulaqda...**

Həmin arzuya çatan atlını müəllifin özünü də hesab etmək olar. Uzun illərdə yalmansız şeir atını çapan, poetik incilər tapan şairi bu yolun uğurlu yolçularından hesab etmək olar. Onun dupduru şeirləri nə müddətdi çay kimi oxucu ünvanına axmağında, yeri gəldikdə söz şəlaləsinə çevrilməyindədir:

**Kimki çəmən qədri, gül qədri bilir,**  
**Çəməninə qurban, gülünə qurban.**  
**Kimki Vətən qədri, el qədri bilir,**  
**Vətəninə qurban, elinə qurban.**

Vəli Qaraçaylı şeirləri, tanıdığı, doğma bildiyi münbit yerlərin gülü-çiçəyi kimi boy atdığından adamda doğma hisslər yaradır.



Böyük Nazim Hikmət poetik hissləri az qala əllə tutmaq mümkün olduqda onları əsl sənət nümunəsi hesab edirdi.

Çox fərəhlidir ki, Vəli şeirlərindən boylanıb o doğma mənzərələri, çayları, bulaqları, çölləri, çəmənləri görmək onlarla oxşanan gözləri görmək, avazları eşitmək olur:

**Elimdən uzaqda yaşasam da mən,**  
**Yadımdan çıxarmı köhnə yurd yeri?**  
**Ziyarət etməsəm ildə bir kərə**  
**Üzümə baxarmı köhnə yurd yeri?**

**Kor olar bu yerdən çəkilsə gözüm,**  
**Elləri gəzib də, dolaşmaz sözüm.**  
**Vəliyəm, yolundan silinsə izim,**  
**Əlimi sıxarmı köhnə yurd yeri?**

Vəli qardaşımın şeirlərin mövzu rəngarəngliyi onun sənətdə bişkinliyindən (söz sərraflığından) xəbər verir.

Əgər onun ürəyini həmin şeirlərinin çeşməsinə bənzətsək, həmin bulağın axarınca düzülmüş lilparvari, yarpızvari şeirlərin hər birinin öz ətri olduğunu duyarıq:

**Payızın nəfəsi çöküb köksünə,**  
**Bürünüb dumana başı dağların.**  
**Rüzgar öz atını minib səyirdir**  
**Yenə çatılıbdı qaşı dağların.**

Bu başqa mənzərə:

**Zamanın xalısı çörələndikcə**  
**Ömrümün ilməsi sökülüb gedir.**  
**Cavanlıq çağında gördüyüm günlər,**  
**Gözümün yaşıyla tökülüb gedir.**

Bir az da zilə çıxılanda:

**Qıy vuranda qartal kimi qıy vuran,**  
**Qanad çalıb göy üzündə görünəm.**  
**Duman kimi ətəklərdən ayrılıb,**  
**Başı qarlı zirvələrə bürünəm.**

Əvvəllər tez-tez gülər üzünü gördüyüm bir qələm dostumun güllü-çiçəkli, çeşməli sədəfli sözünü görmək, onların saflığına çəkilmək, ətrinə bükülmək mənə xoş gəldi. İlk şeiri çobanaldadan quşu deyil, anadil vari bələdçiyə çevrilib məni onu doğma aləmində gəzdirə bildi.

Çoxdandı Abbas Abdulla demişkən, yolu şəhərlərə düşüb şəhərlənmiş bir adama qoynundan qopduğu yerləri xatırlatdı.

Mənəvi də olsa güllü-çiçəkli yaylaqlarda, çənli-çiçəkli oylaqlarda gəzdirə bildi. Elə bildim oralardan bir dəstə çiçəklə qayıtdım. Qulağımda Qaraçaylı şəlaləsinin səsi:

**Azərbaycan - ana Vətən,**  
**Tanrı səni yaradanda,**  
**Qismətini bol veribdi.**  
**Ana qartala bənzədib,**  
**Qanad verib, qol veribdi.**

Əlimdə də bir dəstə çiçək, qələm dostum Vəliyə də dilimdə də Sarıhüseynoğluvari minnətdarlıq:

**Şeirin çeşməvari bir dilisən, sən.**  
**Söz Çənlibelinin dəlisisən, sən,**  
**Elin Qaraçaylı Vəlisisən, sən.**  
**Sinəndə şəlalən,**  
**çağlayanın var!**

**Vaqif Nəsib Sarıhüseynoğlu**